https://doi.org/10.59849/2410-5600.2025.1.109

UOT: 82-09.

**Nəsibə Murtuzayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: murtuzayevanesibe@gmail.com*

# GÖRKƏMLİ ŞƏRQŞÜNAS AİDA İMANQULİYEVA ŞƏRQ ƏDƏBİYYATININ TƏDQİQATÇISI KİMİ

**Xülasə**

Aida İmanquliyevanın Azərbaycanda Şərq ədəbiyyatşünaslığının yeni mərhələyə qədəm qoymasında böyük xidmətləri danılmazdır. Belə ki, Əmir ər-Reyhaninin, Cübran Xəlil Cübranın, Mixail Nüaymənin yaradıcılığı ilə bağlı ilk tədqiqat aparan alimlərdən biri olaraq, Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkülü barədə 3 monoqrafiya və 70-dən artıq elmi məqalə yazmışdır. Onun yaradıcılığında Şərq ədəbiyyatının mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkülü geniş şəkildə tədqiq edilmişdir. Aida xanım Şərq və Qərb arasında elmi və mədəni əlaqələrin, ortaq mədəni dəyərlərin tədqiqini təkmilləşdirərək, səmərəli fəaliyyətində orijinallığı daim qorumuşdur. Alim Şərq ədəbiyyatının ənənələrinin sintezini təşkil etməsi, Şərqin neçə-neçə yazarlarının əsərlərini dilimizə tərcümə etməsi ilə bənzərsiz keyfiyyətli işlər görmüşdür.

***Açar sözlər:*** *Aida İmanquliyeva, Şərq ədəbiyyatı, Avropa ədəbiyyatı, Şərq, Qərb, şərqşünas*

## Giriş

*Ədəbiyyatşünas, şərqşünas, pedaqoq, tərcüməçi, alim Aida İmanquliyevanın şərqşünaslıq elminin hüdudlarının beynəlxalq elm aləmində nüfuzunun irəliləməsində və Şərq ədəbiyyatının ədəbi əlaqə və təsirlərinin sistemli şəkildə araşdırılmasında çox böyük xidmətləri olmuşdur. Aida xanımın çoxsaylı elmi əsərləri Şərq ədəbiyyatının ənənələrinin sintezi, yaradıcı üslubunun inkişafı və yeni bədii üslubun təşəkkül tapmasının tədqiqinə həsr olunmuşdur. Alimin müasir Şərq ədəbiyyatının tədqiq olunmasına dair araşdırmalarının fəaliyyət dairəsi geniş və çoxşaxəli olub, görkəmli Şərq ədəbiyyatının bəzi nümayəndələri olan Mixail Nuaymənin, Mahmud əz-Zahirin, Məhəmməd Dibin, Sahib Camalın, Süheyl İdrisin, Macid Zeyyib Ğənəmanın yaradıcılıqlarının təhlil və tədqiqinə həsr olunmuşdur.*

Aida xanımın Şərq ədəbiyyatının milli-mənəvi dəyərlərinin qorunmasında, Şərqlə Qərbin inteqrasiyasında, bəşəri ideallarn sivilizasiyasında mühüm xidmətləri olmuşdur. İstedadlı alim, ictimai xadim, gözəl qadın və ana Aida xanım C.X.Cibranın ilk hekayələr kitabına daxil olan "Banlı Marta", "Hanili Varda", "Gəlin yatağı", "Qəlbin pünhanı" kimi hekayələrini, "Qırılmış qanadlar" povestindəki Şərq qadınının ailə və cəmiyyətdəki mövqeyini araşdırma obyekti kimi seçərək, Şərq ədəbiyyatının ideyalarına öz mövqeyini əsaslı şəkildə bildirmişdir. Böyük mütəfəkkir Aida İmanquliyevanın şərqşünaslıq elminə yeniliklər gətirib, onun inkişafına təkan verən tədqiqatları, araşdırmaları Şərq ədəbiyyatının tədqiqində yeni səhifə və yeni yol açıb, beynəlxalq miqyasda ən görkəmli, ən sanballı tədqiqatçı kimi onu tanıtdırdı. Görkəmli şərqşünas alim Aida xanım Şərq və Qərb münasibətlərini dönə-

dönə, çoxşaxəli tədqiq edərək mütəfəkkir ədiblərin yaradıcılıqlarının zəngin mövzularını araşdıraraq, özünün "Cübran Xəlil Cübran", "“Qələmlər birliyi" və Mixail Nüaymə" və "Yeni ərəb ədəbiyyatının korifeyləri" kimi əhəmiyyətli tədqiqat əsərlərini yazmışdır. Aida İmanquliyevanın Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqələrinin öyrənilməsi istiqamətində qiymətli əsərləri görkəmli alimin müdrik zəkasının və ruhunun göstəricisidir. Onun Şərq-Qərb qarşılıqlı ədəbi əlaqələrinin əsas istiqamətlərinin müəyyən olunmasında və ayrı-ayrı mütəfəkkir yazıçıların yaradıcılığının öyrənilməsində xüsusi xidmətləri danılmazdır. Şərqşünas alim Aida xanımın Şərq və Qərb müəlliflərinin qərbçilik və şərqçilik mövqelərini geniş tədqiqatlara cəlb etməsi nəticəsində onların yaradıcılıqlarındakı fərqlilik və mürəkkəblilik doğru və obyektiv şəkildə öyrənilə bilmişdir. Görkəmli şərqşünas alim, mahir elm təşkilatçısı, istedadlı pedaqoq, bənzərsiz xanım, vəfalı həyat yoldaşı, fədakar ana Aida İmanquliyeva elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçərək öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində çox sayda elmi məqalənin müəllifi olmuşdur. O, Azərbaycanda Şərq-Qərb ədəbi əlaqələrini araşdıran ilk azərbaycanlı alim kimi adını tarixə yazdırmışdır.

Nəzakət Ələddinqızı "İstedadlı alim və görkəmli şəxsiyyət - Aida İmanquliyeva" məqaləsində Aida İmanquliyevanın Şərq ədəbiyyatına dair tədqiqatlarını analiz etmişdir. "Aida İmanquliyevanın çoxsaylı elmi əsərlərində (3 monoqrafiya ("“Qələmlər birliyi" və Mixail Nüaymə", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatının korifeyləri") və 70-dən artıq elmi məqalə) Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına −yaşadığı mühit və rejim çərçivəsində Azərbaycan milli özünüdərkinin qorunub-saxlanılması və inkişafı idealına sadiq qalmışdır. İstedadlı gənc alim 1967-ci ilin martında Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə edib, filologiya elmləri namizədi alimlik dərəcəsini aldıqdan sonra elmi fəaliyyətini Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda davam etdirmişdir" [8, s.4].

Şərq ədəbiyyatının araşdırıcısı olan alim Cənubi Amerikaya mühacirət etmiş Suriya və Livan ədiblərinin əsərlərini tədqiq edərək onların yaradıcılığındakı müştərək ideyaları və bəşəri dəyərləri tədqiqat obyekti seçmişdir. Alim Şərq ədəbiyyatının ənənələrinin sintezini təşkil etməsi, Şərqin neçə-neçə yazarlarının əsərlərini dilimizə tərcümə etməsi ilə bənzərsiz keyfiyyətli işlər görmüşdür. Aida İmanquliyeva Şərq ədəbiyyatının problemlərinə həsr olunmuş tədqiqat əsərləri ilə Moskva, Bakı, Düşənbə, Hamburq, Kiyev, Sankt-Peterburq, Poltava, Tbilisi və s. kimi şəhərlərdə keçirilən beynəlxalq konfranslarda iştirak edərək məruzələrlə çıxış etmişdir. O, Şərq ədəbiyyatının problemlərinin tədqiqatçısı kimi beynəlxalq aləmdə tanınmışdır. Görkəmli alimi demək olar ki, bütün şərqşünaslıq mərkəzlərində Şərq ədəbiyyatının sanballı tədqiqatçısı kimi qəbul edirlər. Onun fikirləri Şərq ədəbiyyatının ayrı-ayrı problemlərini öyrənmək üçün əsas mənbə rolunu oynayır. Aida xanımın təşəbbüsü ilə Azərbaycanda keçirilən simpoziumlar onun beynəlxalq elm aləmində nüfuzunu daha da çox artırırdı. Qərb və Şərq mədəni ənənələrinin sintezini əsərlərində tətbiq etməsi yaradıcılığında üslub inkişafına və yeni bədii cərəyanların təşəkkül tapmasına səbəb oldu. Aida İmanquliyeva çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açmışdır. Onun çoxşaxəli və zəngin fəaliyyəti nəticəsində Şərq ədəbiyyatına dair tədqiqatların sayı artmış, bu sahəyə olan maraq güclənmişdir.

Elman Quliyev "Şərqşünaslığımızın Aida İmanquliyeva fenomeni" adlı məqaləsində Aida İmanquliyevanı Şərq ədəbiyyatının araşdırıcısı kimi dəyərləndirmişdir. "Aida xanım İmanquliyevanın ərəb ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsi sahəsindəki xidmətləri də xüsusi əhəmiyyətə malikdir. Mixail Nüaymə, Süheyl İdris, Sahib Camal, Məhəmməd Dib, Macid Zeyyib Ğənəma və digər sənətkarlardan etdiyi tərcümələr Aida İmanquliyevanın Azərbaycan və ərəb dillərinin incəliklərinə bələdçiliyindən, yüksək bədii zövqə sahib olmasından və peşəkar tərcüməçi qabiliyyətindən xəbər verir. Lakin Aida xanım İmanquliyeva geniş ictimai-siyasi, elmi-ədəbi fəaliyyət dairəsində xidmətlər göstərsə

də, o, ilk növbədə, şərqşünaslıq elmimizin korifeyi kimi diqqəti cəlb edir. Tərcüməçilik xidmətləri istisna edilərsə, onun şərqşünaslıq fəaliyyəti əsasən, ərəb milli, ərəb-rus, ərəb-qərb ədəbiyyatlarının tədqiqi aspektində üç istiqaməti əhatə edir. Göründüyü kimi, Aida xanımın şərqşünaslıq fəaliyyətinin hər üç istiqamətində ərəb ədəbiyyatının öyrənilməsi əsas yer tutur. Aida xanım İmanquliyevanın şərqşünaslıq fəaliyyətinin mərkəzində, ilk növbədə, problemə müqayisəli, elmi-fəlsəfi və tarixi-tipoloji baxış dayanır. Bu cür baxış və yanaşmanın nəticəsində Azərbaycan şərqşünaslıq elmi məhdud sərhədləri aşaraq beynəlxalq arenaya çıxış etmiş və bir sıra vacib problemlərin həllinə nail olmuşdur" [6, s.4].

Aida İmanquliyeva Şərq ədəbiyyatını araşdıran zaman modernist ərəb yazıçılarının klassik və müasir münasibətdə yazılmış əsərlərini daha geniş bir şəkildə tədqiq etmişdir. O, bədii yaradıcılığı estetik predmet kimi dəyərləndirirdi. Aida xanım Şərq ədəbiyyatının ənənələri ilə yazan ədiblərin yaradıcılıqlarına böyük qiymət verirdi. Onun orijinal əsərləri mühacir ərəb yazıçıları olan Cübran Xəlil, Mixail Nüaymə, ər-Reyhani və digərləri haqqındadır. Aida xanım tədqiqat əsərlərində mövzu rəngarəngliyini qoruyan və əsərlərinin əsas ideyası kimi ədaləti, məhəbbəti və gözəlliyi seçən ədibləri daha yüksək dəyərləndirmişdir. Aida İmanquliyeva yaradıcılığında hansı mövzuya toxunursa-toxunsun, onun tədqiqini çox geniş və dolğun şəkildə etmişdir. O, Şərq ədəbiyyatının nümayəndələrinin əsərlərini tədqiq edərkən ədalətsizliyə qarşı üsyankar ruhu, xeyirxahlığa və gözəlliyə rəğbəti olan ədiblərə qarşı öz müsbət araşdırmaçı rəyini bildirmişdir və bu seçilmə onun əsərlərində açıq-aydın hiss olunmaqdadır. Aida xanım əsərlərində cəmiyyətin problemlərinə, ədalətsizliyə qarşı üsyanı və xeyirxahlıq və gözəlliyi təbliğ etməyin tərəfdarı idi. Onun Şərq ədəbiyyatı mövzuları tipində olan əsərlərinin xarakterizə etmək dövrümüzdə Şərq ədəbiyyatı ənənələrinin qorunması baxımından olduqca əhəmiyyətlidir. Onun demək olar ki, hər əsərinin dərinliyində və mahiyyətində Şərq ədəbiyyatı nümunələrinin bir sirri gizlənir. Aida İmanquliyeva Şərq ədəbiyyatına dair fəlsəfi görüşlərində problemə yanaşarkən bədii yaradıcılıq və düşüncəni estetik problem kimi götürmüşdür və bu onun fəlsəfi baxışlarını dəyərləndirməkdə şərqşünaslara olduqca əhəmiyyətli olmuşdur.

Aida İmanquliyeva bütün cəmiyyətlər üçün aktual bir sosial problem olan nikah məsələsinə də münasibət bildirir. O qeyd edir ki, C.Cübran nikah probleminə toxunaraq, yazır: "Bizim zəmanəmizdə nikah gənc insanlarla qızların ataları arasında gülüş və göz yaşı doğuran sövdələşmədir. Birincilər bir qayda olaraq udur, ikincilər həmişə itirirlər. Qızlarını satlıq mal kimi əldən-ələ ötürürlər". Bu məsələlər bu günün prizmasından "Erkən nikah" adlanır. Professor Aida İmanquliyeva qadın hüququ, qadın azadlığı, erkən nikah, multikulturallıq, gender münasibətləri kimi XXI əsrin aktual mövzularını dəqiq, sistemli təhlilə gətirmişdir və burada bir tədqiqatçı kimi şərqşünas professorun fəlsəfi düşüncələrində Dünəndən Bu günümüzə gələn elmi yola bir daha nəzər yetirək. Aida İmanquliyevaya görə: "Cübran məzlum qadını məzlum millətə, onun əzabı, hüquqsuzluğu və rüsvayçılığını millətin əzabı, hüquqsuzluğu və rüsvayçılığı ilə bərabər tutur: "Məgər bu qadın bu məzlum milləti təcəssüm etdirmirmi? Məgər ruhunun çırpıntıları və cisminin əzabları ilə üzülmüş qadın öz ağaları və din xadimləri tərəfindən əldən salınmış bir millətə bənzəmirmi?" [4, s.84]. Məhz bu fikirlər gender multikulturallığını əks etdirir.

Ömrünün 30 ilini məhəbbətlə bağışladığı şərqşünaslıq elminə öz möhürünü vuran alim Şərq ədəbiyyatını təhlil etdiyi "Ərəb filologiyası məsələləri", "Yaxın və Orta Şərq", "Sovet şərqşünaslığının problemləri və perspektivləri", "Şərqin problemləri: tarix və müasirlik", "Romantizmin problemləri və Şərq" əsərlərində Şərqin ədəbi-fəlsəfi baxışlarını, ictimai-siyasi quruluşunu, yaşam tərzini, elmini, mədəniyyətini, mənəviyyat və düşüncələrini tədqiqat obyekti seçərək araşdırmışdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Aida İmanquliyevanın bütün cəmiyyətlər üçün aktual olan fikirləri haqqında söyləyir ki: "Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam ¬nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində

öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Onun yoxluğunu hər zaman hiss edirəm" [7].

Qərb və Şərq mədəniyyətlərinin qarşılıqlı əlaqələrinin tədqiqi ideologiyaların sivilizasiyasına, mədəni və mənəvi dəyərlərin inkişafına rəvac vermişdir. Aida xanım əsərlərində toxunduqları mövzular ilə Şərq ədəbiyyatında mənəvi körpü olmaq missiyasını yerinə yetirən böyük Azərbaycan mütəfəkkirləri və alimləri olan: Bəhmənyar, Xətib Təbrizi, Şihabəddin Sührəvərdi, Mahmud Şəbüstəri, Nizami Gəncəvi, Məhəmməd ibn Hinduşah Naxçıvani, A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım bəy və başqalarının əsərlərinin ideologiyalarını tədqiq edərək, onların öz qiymətli əsərləri ilə Şərq xalqlarının tarixinə, ədəbiyyatına və fəlsəfəsinin inkişafına əvəzsiz töhfələr verdiyini sübut etmişdir. Aida xanım ərəb, fars və türk dillərini səlis şəkildə bilən Azərbaycanın böyük ədəbiyyatşünaslarının və mətnşünaslarının şərqşünaslığa dair fikirlərini özünəməxsus şəkildə analitik təfəkkürünün, geniş erudisiyasının, zəngin mütaliəsinin sayəsində apardığı tədqiqatlar və yazdığı əsərlərdə tədqiq etmişdir. Yaxın Şərq xalqlarının ədəbiyyatının problematikasının bədii-romantik tərənnümü Aida xanımın yaradıcılığında fəlsəfi problem kimi qoyularaq, elmi-fəlsəfi arqumentlərlə sübuta yetirilmişdir. Çox savadlı, ziyalı, vətənpərvər, alim Aida xanım Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin inkişaf edib, qorunub möhkəmlənməsində yüksək səviyyədə olan xidmətləri danılmazdır. O, Azərbaycanda şərqşünaslıq elminin inkişafında böyük xidmətlər göstərərək, beynəlxalq aləmdə şərqşünaslıq elminin ən sanballı tədqiqatçısı kimi qəbul edilmişdir. Aida İmanquliyevanın beynəlxalq elm aləmində nüfuzunun yüksək qiymətləndirilməsində aktual əsərlərinin rolu əvəzsizdir.

## Nəticə

*Aida xanımın qənaətinə görə, Şərq ədəbiyyatının dəyərlərinin təkmilləşdirilməsi üçün mədəni nailiyyətlər və texniki tərəqqi ilə yanaşı, Şərqlə Qərb mədəniyyətlərinin inteqrasiyası prosesidə eyni dərəcədə önəmlidir. Şərq ədiblərinin yaradıcılığını tədqiq etməklə Aida xanım onların əsərlərindəki müştərək ideyaların eyni ağrıdan boy atdığını, eyni amala xidmət etdiyini elmi əsaslarla sübut etmişdir. Ziyalı, şərqşünas alim, müəllim Aida xanım Şərq mühitinin ictimai-siyasi xəritəsini çəkib, ədəbi-bədii və fəlsəfi mühitinin mənzərəsini yaradıb, Şərq ədəbiyyatındakı demokratik dəyərlərin inkişafını geniş şəkildə şərh etmişdir. Şərqşünas alim özünün "Müasir ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyası ilə Şərq ədəbiyyatının elmi, bədii, publisistik ruha köklənən nümunələrini Azərbaycan, rus və Avropa ədəbiyyatı ilə müqayisə edib, ədəbi-mədəni əlaqələrin inkişafında körpü yaratmışdır.*

## Ədəbiyyat siyahısı:

1. A. İmanquliyevanın Şərq-Qərb problematikası kontekstində araşdırmaları (ədəbi-fəlsəfi təhlil) // "İpək yolu"- Beynəlxalq elmi ictimai - siyasi jurnal, 2013, № 4, s. 88-94.
2. A. İmanquliyevanın həyatı və onun elmi yaradıcılığına bədiifəlsəfi baxış // Journal of Qafqaz University -Azərbaycan Qafqaz Universiteti, 2014, № 2, s. 179-184.
3. A.İmanquliyeva. Dünya deyilən sənmişsən… N.A.Paşayevanın tərtibi və redaktorluğu ilə. Powerprint-İstanbul, 2002, 238 s.
4. İmanquliyeva "Yeni Ərəb Ədəbiyyatı korifeyləri", Bakı, Elm 2003.
5. Aida İmanquliyevanın bədii tərcümələri və bədii tərcümə sənəti haqqında fikirləri //AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. "Şərq filologiyası məsələləri" (məqalələr toplusu), 2014, səkkizinci buraxılış, s. 50-60.

6. Elman Quliyev // "Şərqşünaslığımızın Aida İmanquliyeva fenomeni// Ədəbiyyat qəzeti.- 2024.- 5 oktyabr, №38.- S.4-5.
7. https://report.az/daxili-siyaset/mehriban-eliyeva-aile-deyerler-ve-xosbextlik-haqqinda/
8. Nəzakət Ələddinqızı // İstedadlı alim və görkəmli şəxsiyyət - Aida İmanquliyeva // Səs.- 2021.- 9 oktyabr.- S.4.
9. Professor Aida İmanquliyeva araşdırmalarında rus klassiklərinin Mixail Nüaymə yaradıcılığına təsiri haqqında // AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. "Şərq filologiyası məsələləri" (məqalələr toplusu), 2012, (altıncı buraxılış), s.164-175.
10. Xəlilov, Səlahəddin Sədrəddin oğlu. Şərq ruhunun Qərb həyatı : Aida İmanquliyevanın yardıcılıq axtarışlarının izi ilə / S. S. Xəlilov ; elmi red. N. A. Paşayeva ; "Şərq-Qərb" Tədqiqat Mərkəzi. - Bakı : Şərq-Qərb, 2009. - 380 s.

**Nasiba Murtuzayeva**

**Prominent orientalist Aida Imanguliyeva as a researcher of Eastern literature**

***Summary***

According to Aida Khanum, the process of integration of Eastern and Western cultures, along with cultural achievements and technical progress, is equally important for the improvement of the values of Eastern literature. By studying the creativity of Eastern writers, Aida Khanum proved with scientific grounds that the common ideas in their works arose from the same pain and served the same purpose. An intellectual, orientalist scientist, teacher, Aida Khanum drew a socio-political map of the Eastern environment, created a picture of its literary, artistic and philosophical environment, and extensively commented on the development of democratic values in Eastern literature. The orientalist scientist compared the scientific, artistic, and journalistic examples of Eastern literature with Azerbaijani, Russian and European literature in her monograph "Leaders of Modern Arab Literature".

***Keywords:*** *Aida Imanguliyeva, Eastern literature, European literature, East, West, orientalist*

*Filologiya üzrə fəlsəfə doktoru, dosent* ***Xatirə Yusifova***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*